## MƏRASİM FOLKLORU. ОБРЯДОВЫЙ ФОЛЬКЛОР. RITUAL FOLKLORE

**Əsədulla Qurbanov**
**Bakı Dövlət Universiteti (Azərbaycan)**

# MİLLİ VƏ ÜMUMBƏŞƏRİ BAYRAM
## (unudulmayan bir xatirə)

**Açar sözlər: Novruz bayramı, milli və ümumbəşəri dəyərlər, Şıxəli Qurbanov**

Bayram sözü adından da bəlli olduğu kimi, xoş ovqat, şənlik, yüksək əhval-ruhiyyə... mənası ehtiva etməklə yanaşı, həm də milli və ümumbəşəri məna, məzmun və mündəricə kəsb edir, daşıyır. Başqa sözlə desək, hər bir millidə ümumbəşəri, ümumbəşəridə isə milli vardır. Bunlar həm milli, həm də ümumbəşəri olmaqla bərabər, eyni zamanda bir-birilə dialektik vəhdət təşkil edən məfhumlardır, anlayışlardır. Yeri gəlmişkən, "məfhum" sözü haqqında bir neçə kəlmə demək istərdik. Məfhum, termin, anlayış, istilah: bunlar məntiqi kateqoriyalardır. Məntiq isə düzgün təfəkkürün forma və qanunları haqqında elmdir. Bəşər tarixində məntiq elmi haqqında qiymətli fikirlər söyləyən çoxsaylı tarixi şəxsiyyətlər olmuşdur. Onlardan biri də islam dininin banisi ulu Məhəmməd Peyğəmbərdir (570-632-ci illər). O, hədislərinin, kəlamlarının birində belə söyləmişdir: "Allah məntiqdən yaxşı heç bir şey yaratmamışdır. Yaxud məntiqdən daha kamil və daha gözəl heç nə mövcud etməmişdir. Allahın bağışladığı faydalar məntiqin hesabına əmələ gəlmişdir. Başa düşmək və dərk etmək də məntiqdəndir. Məntiqə diqqət etmədikdə Allahın qəzəbinə düçar olarsan. (1, 55-56).

... Biz yuxarıda dedik ki, məntiq düzgün təfəkkürün forma və qanunları haqqında elmdir. Təfəkkür isə xarici aləmə aid olan şeylərin, hadisələrin qurumu, mühüm xassə və əlamətlərinin insan beynində inikası deməkdir. Bəli, "bayram" sözü də belə məfhumlardandır. Məfhumlar da təsnifatlarına görə çoxsaylıdır. Məsələn, 1. Məfhumların mahiyyəti. 2. Məfhum və təsəvvür. 3. Məfhum və söz. 4. Məfhumların məzmunu və həcmi və s. Onların sayı 9-dur. Əlbəttə, biz bu yazımızda məntiq elmi, onun kateqoriyalarının hamısından bəhs etmək niyyətində deyilik. Bununla belə, məqsədimiz Novruz bayramının məzmunu və həcmi barədə təsəvvür yaratmaqdan ibarətdir.

Təsadüfi deyildir ki, müqəddəs Quranın Məkkədə nazil olmuş 30 ayədən ibarət Əl-Həcr ("Dan yeri") adlı 89-cu surəsinin 3-cü ayəsində sözügedən bayramdan, eləcə də Qurban bayramından bəhs olunur (2, 629). Təəssüf ki, çox dərin milli və ümumbəşəri məna, məzmun və mündəricə kəsb edən bahar bayramı ölkəmizdə sovet dönəmində dini bayram kimi qələmə verilmiş, onun geniş xalq kütləsi tərəfindən qeyd olunması demək olar ki, rəsmi şəkildə yasaq olunmuşdu.

Buna baxmayaraq xalqımızın milli məfkurəsinin işıqlı, ümumbəşəri ideallarına xidmət edən oğullarından – mərhum, görkəmli alim və ictimai xadimlərindən Şıxəli Qurbanovun, Vəli Məmmədovun təşəbbüsləri və başqalarının dəstəyi ilə ötən əsrin 60-70-ci illərində bahar bayramı ölkəmizdə, onun paytaxtı Bakı şəhərində ümumxalq bayramı kimi intellektuallıq və emosionallıq baxımından yüksək səviyyədə qeyd olunmuşdur.

Bu sətirlərin müəllifi həmin dövrdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin

mərkəzi aparatında məsul vəzifədə çalışarkən haqqında söhbət gedən məsələ - yəni bahar bayramının keçirilməsi işləri ilə də ciddi məşğul olurdu. Yaxşı yadımdadır. Bahar bayramına həsr olunmuş bədii özfəaliyyət kollektivlərinə baxışlar, festivallar, müsabiqələr keçirirdik. Bu da yaxşı yadımdadır ki, mərhum Şıxəli Qurbanov özünün ümumittifaq miqyaslı nüfuzundan istifadə edərək bahar bayramının ümumbəşəri mahiyyəti haqqında müqəddir söz deyə, fikir söyləyə bilən görkəmli rus, yəhudi, şərq-qərb mütəxəssislərini Bakıya-Azərbaycana dəvət edib, onların çıxışlarının dövri mətbuatda dərc edilməsini, efir və ekranda canlı və maraqlı verilişlərinin hazırlanmasını təşkil etmişdi. O özü bu barədə "Правда", "Известия" "Литературная газета", "Комсомольская правда"da iri həcmli məqalələrini çap etdirmişdi. Mərhum Vəli Məmmədov isə o zamankı SSSRİ "Bilik" cəmiyyətinin aylıq orqanı olan "Наука и религия" adlı jurnalda "Bahar bayramının fəlsəfi aspektləri" adlı iri həcmli məqalə ilə çıxış etmişdi.

... Bizə elə gəlir ki, bahar bayramının milli və ümumbəşəri mahiyyəti haqqında bu cür cəsarətli söz demək, aşkar fikir söyləmək əsasən bir sıra amillərlə bağlıdır.

Birincisi, milli və ümumbəşəri səciyyə daşıyan Şərq, o cümlədən Azərbaycan mentalitetinin fəlsəfəsini çox yaxşı və dərindən bilmək tələb olunurdu. Bu xüsusiyyət Şıxəli Qurbanovda tam olaraq cəmləşmişdi.

İkincisi, Şıxəli Qurbanov qardaş özbək xalqının böyük oğlu, görkəmli siyasi ictimai, dövlət xadimi və mütəfəkkir, önəmli bədii şüur sahibi Şərəf Rəşidov və iki xalqın – Azərbaycan və özbək xalqının oğlu – məşhur filoloq alim, yazıçı, ictimai xadim Maqsud Şeyxzadə ilə bahar bayramı barədə daim fikir mübadiləsi edirdi.

Üçüncüsü, rəsmi məlumata görə, Şıxəli Qurbanov Moskvada keçirilən Azərbaycan ədəbiyyatı öngünlüklərinin birində keçmiş SSRİ-nin baş ideoloqu Mixail Suslovun qəbulunda olarkən bahar bayramının dərin fəlsəfəsi barədə ona öz orijinal fikirlərini bildirmişdi. Ədalət naminə qeyd etmək lazımdır ki, Şıxəli Qurbanovun bahar bayramı haqqında fikirləri Mixail Suslovda dərin maraq oyatmışdı. Bu, son nəticədə öz xoş bəhrəsini vermişdi. Başqa sözlə desək, Şıxəli Qurbanovun Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideoloji iş üzrə katibi olmasında mühüm rol oynamışdı.

... Şıxəli Qurbanov və Vəli Məmmədovun bilavasitə təşəbbüsləri, rəhbərlikləri ilə XX əsrin 60-cı illərinin ikinci yarısında Azərbaycanda çox böyük təntənə ilə keçirilən bahar bayramlarında məşhur aktrisa Safura xanım İbrahimova "Bahar qızı" rolunda Qız qalasında parlaq çıxış etmişdi.

... Yeri gəlmişkən, bahar bayramı ilə əlaqədar olaraq daha iki çox xarakterik məqamı da xatırlatmaq istərdik.

Birincisi, Azərbaycan Respublikası 1991-ci ildə ikinci dəfə öz milli müstəqilliyinə qovuşduqdan və xüsusilə ulu öndərimiz Heydər Əliyev məşhur "91"-lər hərəkatının, habelə xalqın təkidli xahişi ilə yenidən siyasi hakimiyyətə gəldikdən sonra ölkəmizdə qeyd olunan milli və ümumbəşəri səciyyəli adətlər, mərasimlər, bayramlar mahiyyətcə tamamilə yeni vətəndaşlıq statusu aldılar. Başqa sözlə desək, bunlar adətdən ənənəyə çevrildilər. Bu, ildən-ilə yeni ümumbəşəri məna qazanmağa başladı. Burada belə bir çox önəmli faktı da xüsusi qeyd etmək istərdik.

... Son zamanlar bilavasitə Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva xalqımızın qədim və zəngin maddi və qeyri-maddi irsinin hifz edilib, qorunub saxlanması və daha da inkişaf etdirilməsinə öz çoxcəhətli, titanik fəaliyyətində müstəsna dərəcədə diqqət yetirir. Bu qeyri-

maddi irsin içərisində "Novruz bayramı" da vardır. Xüsusi olaraq Mehriban xanım Əliyevanın rəhbərliyi altında ölkəmizdə - unikal paytaxtımız Bakıda baş tutan keçənilki Bahar bayramında YUNESKO-nun və İSESKO-nun rəhbərliyi də iştirak etmişdi. Milli və ümumbəşəri xarakter, səciyyə daşıyan həmin "Bahar bayram"ı YUNESKO-nun və İSESKO-nun xətti ilə dünya ictimaiyyətinin böyük marağına səbəb olmuşdur. Yalnız bundan sonra "Novruz bayramı"nın YUNESKO tərəfindən zəngin qeyri-maddi irs kimi qeydiyyata alınması bütün dünyaya bəyan edilmişdir.

... "Bahar bayram"ı ilə əlaqədar olaraq qeyd etmək istədiyimiz ikinci önəmli məqam ondan ibarətdir ki, ölkəmizdə son zamanlar bahar bayramı təkcə azəri türkləri tərəfindən deyil, eyni zamanda müstəqil ölkəmizdə tarixən məskunlaşan milli-etnik qruplar – ləzgilər, avarlar, darginlər, laklar, saxurlar, udinlər, ingiloylar, tatlar, talışlar, yəhudilər, habelə slavyan xalqlarının nümayəndələri tərəfindən də çox böyük təntənə ilə qeyd olunur.

... Müstəqil Azərbaycanda yaşayan 9 milyonluq əhalini ətirli güldən, çiçəkdən hörülmüş nəhəng bir çələngə bənzətmək olar. Həmin gülləri, çiçəkləri yuxarıda qeyd edilən milli-etnik qruplara da aid etmək olar. Onlardan gələn xoş ətirlər Bahar bayramı zamanı daha təsirlidir. Hər şeydən əvvəl, ona görə ki, Bahar bayramı zamanı bu mərasimdə ifa olunan qara zurnanın, tarın, qavalın, tamburun... ecazkar musiqi sədaları altında çox böyük istedadla nümayiş etdirilən rəqslər – "Heyva gülü", "Ləzginka", "Tərəkəmə", "Vağzalı" ... rəqs havaları, aşıq mahnıları milli, dini mənsubiyyətindən asılı olmayaraq hər kəsi valeh edir.

... Milli və ümumbəşəri mənəvi dəyərləri, rəngarəng çalarları ilə zəngin olan "Bahar bayramı"nda eyni zamanda azərbaycançılıq da ehtiva olunur.

... Əlbəttə, Bahar bayramı ilə əlaqədar bu qəbildən olan düşüncə, mülahizə və faktların sayını artırmaq da mümkündür. Bununla yanaşı, sözü gedən bayramla bağlı tövsiyə xarakterli bəzi təkliflərimizi də bildirmək istərdik.

Birincisi, bizcə yaxşı olardı ki, "Bahar bayramı" ("Novruz bayramı") barədə xüsusi proqramla respublikamızın bütün dövlət və özəl təhsil müəssisələrində şagird və tələbələrə biliklər verilsin.

İkincisi, zənnimizcə bu da daha məqsədyönlü olardı ki, "Bahar bayramı" ("Novruz bayramı") haqqında dövri mətbuatda, efirdə, ekranda və internetdə materiallar verilsin, verilişlər hazırlanıb aparılsın. Bu iş təkcə "Bahar bayramı"nın ("Novruz bayramı"nın) keçirildiyi mart ayında deyil, ilin bütün aylarında müntəzəm olaraq təşkil edilsin.

Üçüncüsü, "Bahar bayramı" ("Novruz bayramı") haqqında iri həcmli fundamental xarakterli elmi-tədqiqat, bədii-publisistik əsərlər yazılaraq çap edilsin, onların geniş əhali kütləsinə çatdırılmasının vacibliyinə xüsusi diqqət yetirilsin.

Dördüncüsü, tövsiyə edirik ki, bu iş dövlət siyasəti çərçivəsində aparılsın.

Əlbəttə, bu qəbildən olan tövsiyə xarakterli təkliflərin də sayını artırmaq olardı. Güman edirik ki, əlaqədar rəhbər orqanlar, o cümlədən Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Milli Elmlər Akademiyası və Mətbuat Şurası qaldırılan bu məsələlərin həllinə xüsusi diqqət yetirəcəkdir.

## ƏDƏBİYYAT:


1. Məhəmməd Peyğəmbər. Kəlamlar. Bakı, 1990
2. Quran. Tərcümə edənlər Z.Bünyadov, V.Məmmədəliyev. Bakı, 1991

**Асадулла Гурбанов**
**Бакинский государственный университет (Азербайджан)**

## НАЦИОНАЛЬНЫЙ И ОБЩЕЧЕЛОВЕЧЕСКИЙ ПРАЗДНИК

### Р Е З Ю М Е

В статье нашли отражение воспоминания автора, связанные с проведением праздника Новруз в Баку по инициативе выдающихся ученых и общественных деятелей Шихали Гурбанова и Вели Мамедова в 60-х годах XX столетия – во времена господства советской идеологии. Здесь повествуется о некоторых подробностях событий, происшедших в процессе организации этих мероприятий и не нашедших отражение ни в одном источнике.
**Ключевые слова: праздник Новруз, национальные и общечеловеческие ценности, Шихали Гурбанов**

**Asadullah Gurbanov**
**the Baku State University(Azerbaijan)**

## NATIONAL AND UNIVERSAL HOLIDAY

### SUMMARY

In the article have found reflexion of the author’s memoirs, connected with carrying out of Novruz holiday in Baku in $60^{th}$ years of XX centuries – in the period of domination of the Soviet ideology – at the initiative of Shikhali Gurbanov and Veli Mamedov, outstanding scientists and public figures. There is spoken about some details of events, which had place in the course of the organization of these actions and not found reflexion in one source.
**Keywords: the Novruz holiday, national and universal values, Shikhali Gurbanov.**